subtropiklər diyarının inkişafı

Lənkəran yurdumuzun dilbər guşələrindən biridir. Şərqdən mavi Xəzər, qərbdən əzəmətli Talış dağları ilə əhatələnib. Əsrarəngiz gözəlliyə, unikal təbiətə malikdir. Azərbaycanda mövcud 11 iqlim qurşağından 9-u bu yerlərdən keçir. Görənlər hüsnünə heyran olur. Şəninə şeirlər yazılıb, mahnılar bəstələnib. Görkəmli rus şairi Nikolay Tixonov bu cənnətməkan diyarı məftunluqla vəsf edərək onu "cənub mirvarisi qızıl Lənkəran" adlandırıb. Lənkəran təkcə təbiəti ilə deyil, igid, hünərvər qəhrəmanları, sadə, zəhmətkeş, əməkçi insanları, adlı-sanlı ziyalıları, alimlərilə də məşhurdur.

Bütün dövrlərdə Lənkəran ölkə rəhbərliyinin diqqət mərkəzində olub. Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dövrdə subtropiklər diyarının inkişafına xüsusi qayğı göstərib. Ötən əsrin 1970-80-ci illərində ulu öndərin yüksək diqqət və qayğısı sayəsində Lənkəranda bütün sahələrdə sürətli inkişaf təmin edilmiş, Xanbulançay dəryaçası, hava limanı, Lənkəran Dövlət Dram Teatrı, yeni mikrorayon, xəstəxana kompleksi, çoxlu təhsil, səhiyyə, mədəniyyət müəssisələri tikilib istifadəyə verilmişdir.

Rayona 5 dəfə səfər edən ümummilli lider yeni tikilmiş obyektlərin açılışlarında, keçirilən məhsul bayramlarında şəxsən iştirak etmiş, dövlət qayğısı sayəsində Lənkəran respublikamızın güclü iqtisadi potensiala malik mədəni mərkəzlərindən birinə çevrilmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev çıxışlarının birində bu barədə demişdir: "Bu diqqət və qayğı bu gün var, keçmişdə olub, sabah da olacaqdır. Hələ 1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən sonra Lənkəranın inkişafı ilə daim məşğul olmuşdur. O illərdə Lənkəranda quruculuq işləri, abadlıq işləri, iqtisadi inkişaf istiqamətində böyük işlər görülmüşdür. Demək olar ki, məhz o illərdə Lənkəranda güclü iqtisadi potensial yaranmışdır. Həmin o potensial bu gün də Lənkəran üçün, bütün ölkə üçün çox vacibdir, çox böyük fayda gətirir və bundan sonra da gətirəcəkdir."

Ulu öndərin Lənkərana və lənkəranlılara göstərdiyi misilsiz qayğını bu gün ölkə Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. Prezidentliyi dövründə rayona 10 dəfə səfər edən dövlətimizin başçısının yüksək diqqəti sayəsində Lənkəranda irimiqyaslı, müasir layihələr həyata keçirilib, yeni infrastruktur formalaşıb.

Bu gün Lənkəranda qədimliklə müasirlik vəhdət təşkil edir. Ulu diyarın keçmişindən soraq verən Xan evi, Dairəvi Qala (Zindan), Mayak, əsrlərin yadigarları olan çoxlu tarixi abidələr, bu yerlərin buzlaşmaya məruz qalmadığını göstərən, unikal təbiət abidəsi Hirkan Milli Parkı, digər tərəfdən son illər ucaldılmış əzəmətli tikililər - Heydər Əliyev Mərkəzi, Gənclər Mərkəzi, Mədəniyyət Mərkəzi, İstisu və Sağlamlıq Mərkəzi, hava limanı, müasir hotel və mehmanxanalar, yeni salınmış park və xiyabanlar, təzə salınmış asfalt yollar, körpülər subtropiklər diyarına xüsusi gözəllik verir.

Möhtərəm Prezidentimizin müəllifi olduğu "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" Lənkəranda uğurla, işgüzarlıqla icra olunur. **Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov** qazanılmış nailiyyətlərin arxasında cənab Prezidentin yüksək qayğısının durduğunu, yola saldığımız ilin daha bir əlamətdar hadisə ilə tarixə çevrildiyini önə çəkərək dedi:

- Xalqımız Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2003-cü il oktyabr ayının 15-də ilk dəfə Prezident seçilməsinin 15 illiyini böyük təntənə ilə qeyd etdi. Cənab Prezident və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ənənəyə sadiq qalaraq belə bir gündə - oktyabrın 15-də Lənkərana növbəti səfər edərək lənkəranlıların yanında oldular. Səfər çərçivəsində cənab Prezident Olimpiya İdman Kompleksinin, "Azərxalça" ASC-nin Lənkəran filialının, Hirkan-Daşdatük-Biləsər avtomobil yolunun açılışlarında iştirak etdi. Lənkəran İstisu və Sağlamlıq Mərkəzinin təqdimatı keçirildi. Xalça emalatxanasın kollektivi, Sağlamlıq Mərkəzində rayon ictimaiyyətinin nümayəndələri cənab Prezidenti və Birinci vitse-prezidenti xoş əhval-ruhiyyə ilə, hərarətlə qarşıladılar.

Dövlətimizin başçısı rayonunun sosial-iqtisadi inkişafı sahəsində görülən işləri yüksək qiymətləndirərək açılışında iştirak etdiyi, baxış keçirdiyi və yeni istifadəyə verilmiş Qida Təhlükəsizliyi Agentliyinin Lənkəran regional sınaq laboratoriyasının, Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin, "Lənkəran-2" yarımstansiyasının rayonun sürətlə artan iqtisadi potensialına növbəti töhfələr olduğunu bildirdi. Cənab Prezident gələn ilin əvvəlində yeni Dövlət Proqramının qəbul ediləcəyini və ölkəmizin hər yerində olduğu kimi Lənkəranda da yeni infrastruktur və sosial layihələrin icra olunacağını, rayonun inkişafının daha da sürətlənəcəyini diqqətə çatdırdı.

Möhtərəm Prezident səfərdən dərhal sonra Lənkəran rayonunda çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi ilə bağlı 3,66 milyon manat, rayonun Şıxəkəran kəndində 432 şagird yerlik məktəb binasının tikintisi üçün ilkin olaraq 2 milyon manat və Lənkəran-Lerik avtomobil yolunun yenidən qurulması ilə əlaqədar əlavə 9,2 milyon manat vəsaitin ayrılması barədə sərəncamlar imzaladı.

Bütün bunlar dövlətimizin başçısının Lənkərana, rayonun zəhmətkeş, qədirbilən insanlarına bəslədiyi dərin hörmətin, ehtiramın və etimadın əyani nümunəsidir. Mən lənkəranlılar adından bu əvəzsiz qayğıya görə möhtərəm Prezidentimizə dərin minnətdarlığımızı bildirirəm.

Bütün sahələrdə dinamik inkişaf təmin olunub

2018-ci ili yüksək nailiyyətlərlə yola salırıq, - deyə **Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini - ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Rasilə Arifqızı** söhbətə başlayır. Cənab Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Lənkəran rayonunda sosial-iqtisadi inkişaf sürətlə davam etmiş, bütün sahələr üzrə nəzərdə tutulmuş tədbirlər vaxtında həyata keçirilmişdir.

İlin 9 ayında rayonda ümumi məhsul buraxılışı 326,7 milyon manat təşkil etmişdir. Bu, əvvəlki dövrlə müqayisədə 9,6 faiz çoxdur. Sənayedə 28,4 milyon manatlıq və ya ötən ilin müvafiq dövrünə nisbətən 11,4 faiz çox məhsul istehsal olunmuşdur. Sənayenin qeyri-dövlət sektorunda istehsalın həcmi 11,8 faiz artmış və ümumi həcmdə onun xüsusi çəkisi 71,1 faiz olmuşdur. Sənayedə işləyənlərin orta aylıq əməkhaqqı 304 manat təşkil etmişdir.

Rayonda yeni istehsal obyektlərinin yaradılması, iş yerlərinin açılması sahəsində ardıcıl tədbirlər görülür. Lənkəran şəhərində inşa edilən qənnadı məhsulları fabrikində yüzdən çox adamın işlə təmin edilməsi nəzərdə tutulmuşdur.

İlin 9 ayında məşğulluq mərkəzinə 2279 nəfər müraciət etmişdir. İşlə təmin olunmaqdan ötrü 1109 nəfərə göndəriş verilmişdir. Onlardan 361 nəfəri qadınlardır. Bu dövrdə yeni açılmış 3068 iş yerindən 2279-u daimi iş yerləri olmuşdur.

Lənkəran böyük iqtisadi potensiala malik aqrar rayondur. Cari ilin 9 ayında 87,2 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. Yığımın əvvəlindən 73 min ton tərəvəz, 3983 ton kartof, 1622 ton taxıl, 14135 ton sitrus meyvələri, 272 ton yaşıl çay yarpağı, 3387 ton çəltik istehsal edilmişdir. Hazırda kənd təsərrüfatı məhsullarının yığımı davam etdirilir.

2017-ci il senyabrın 3-də Lənkəran şəhərində keçirilmiş "Çay, çəltik və sitrus meyvələrinin istehsalına dair respublika müşavirəsi"ndən sonra Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə 2018-2025-ci illər üçün respublikada çəltikçiliyin və sitrus meyvəçiliyinin inkişafına dair, 2018-2027-ci illər üçün çayçılığın inkişafına dair Dövlət proqramları qəbul olunmuşdur. Dövlətimizin aqrar sahənin inkişafına göstərdiyi misilsiz qayğı lənkəranlılarda yüksək əhval-ruhiyyə, işgüzarlıq yaratmış, torpağa münasibəti dəyişmiş, sahibkarlıq hissini gücləndirmişdir.

Bu proqramların icrası ilə əlaqədar çəltik əkini 300 hektar, çay əkini 50 hektar, sitrus əkini 250 hektardan çox artırılmışdır. Müasir texnologiyalara uyğun maşın və mexanizmlər, avadanlıqlar lizinq yolu ilə gətirilərək təsərrüfatlara verilmişdir. Çəltik əkini və biçini üçün Cənubi Koreyadan Daedon markalı 4 ədəd kombayn, 5 ədəd biçin, ümumilikdə isə 25 ədəd müxtəlif texnika gətirilmişdir. Bu da çəltik əkinlərinin Asiya üsulu ilə aparılmasına və məhsuldarlığın artmasına, itkilərin qarşısının alınmasına zəmin yaratmışdır. Dövlət proqramlarının icrası nəticəsində gələcəkdə çay plantasiyalarının 1500-2 min hektara, çəltik əkinlərinin 1500 hektara, sitrus bağlarının 2-2,5 min hektara çatdırılacağı nəzərdə tutulmuşdur.

Çayçılıqda da yeni texnikaların tətbiqinə başlanılıb. Rayonda ilk dəfə olaraq Yaponiya texnologiyası əsasında çay əkini aparılır. Rayonda 621 hektar çay plantasiyası vardır. Bunun 454 hektarı son illər əkilib.

İlin 9 ayında sahələrdən 272 ton yaşıl çay yarpağı istehsal olunub. Bu da ötən ilə nisbətən 13 faiz çoxdur. İlin sonunadək 300 ton yaşıl çay yarpağının yığılması nəzərdə tutulmuşdur. Onu da qeyd edim ki, tərkibində faydalı elementlərin çoxluğuna və ağır metalların olmamasına görə Lənkəran çayı digər çaylardan fərqlənir.

Rayonda 1374 hektar sitrus bağları var. Bunun 250 hektarı son iki ildə salınıb. "Fruit Garden" MMC tərəfindən Türkiyədən gətirilmiş 92 min ədəd sitrus meyvə ağacları Separadi kəndində müasir texnologiyaya uyğun əkilmiş, damcı üsulu ilə yeni suvarma şəbəkəsi yaradılmış, respublikada ilk dəfə olaraq şaxtanın təsirini azaldan 2 milyon 200 min dollar dəyərində "Don qoruyucu Pərvanə" quraşdırılmışdır. Həmçinin MMC tərəfindən Şağlaser kəndində Türkiyədən alınmış 1400 ədəd qoz tinglərindən ibarət 4 hektar sahədə bağ salınmışdır. Ağaclara aqrotexniki qaydada qulluq göstərilir.

Cənubi Koreyadan gətirilmiş yüksək məhsuldarlığa malik hallobonq sortlu sitrus ağacları ötən ildən məhsul verir. Rayonun sitrus bağlarından 14135 ton məhsul yığılmışdır. Bu da əvvəlki ilə nisbətən 5 faiz çoxdur. İlin sonunadək sitrus meyvələrinin istehsalı 15 min tona çatdırılacaqdır.

Cari ildə çəltik əkinləri 300 hektar artırılaraq 826 hektar sahədə əkin aparılmışdır. Təkcə "Green East" MMC tərəfindən Viravul kəndində müasir texnologiya ilə 100 hektarda çəltik əkilmiş, sahələrdən bol məhsul yığılmışdır. Həmçinin Girdəni kəndində "Grean East" MMC-nin illik istehsal gücü 7,5 min ton olan emal zavodu quraşdırılıb. Mövsum ərzində rayonda 3387 ton məhsul yığılmışdır. Hektarın məhsuldarlığı 40 sentnerdən çox olmuş, keçən ilə nisbətən 86,6 faiz artıq çəltik istehsal olunmuşdur.

Əvvəlki illə müqayisədə çay istehsalının 13 faiz, çəltiyin 86,6 faiz, sitrus meyvələri istehsalının 5 faiz artması sevindirici rəqəmlərdir. Bu məhsulların böyük hissəsi daxili, qalanı xarici bazarlara çıxarılır. Məhsullarımıza Rusiya, Belarus, Ukrayna və Türkiyədə maraq böyükdür. Qiymətlər də münasibdir. Həm istehsalçıya, həm də alıcıya çox sərfəlidir.

Ənənəvi təsərrüfat sahələrinin dirçəldilməsi məqsədilə rayonda barama istehsalına başlanmışdır. Proqnoz tapşırığa artıqlaması ilə əməl edilərək 3,7 ton yüksək keyfiyyətli barama istehsal edilmişdir.

İlin əvvəlindən heyvandarlıq məhsullarının istehsalında da irəliləyiş baş vermiş, diri çəkidə 4639 ton ət, 24899 ton süd və 14,7 milyon ədəd yumurta istehsal edilmişdir.

Tikinti, abadlıq, quruculuq işləri diqqət mərkəzindədir

Sahibkarlığın inkişafı Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının daim diqqət mərkəzindədir, - deyə Rasilə Arifqızı söhbətini davam etdirir. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən sahibkarlara və iş adamlarına 522 min manat güzəştli kredit verilmişdir. İlin 9 ayında sənaye üzrə məhsul istehsalının həcminin 71,1 faizi, aqrar bölmədə 99 faizi və ödənişli xidmətlərin 75,4 faizi özəl bölmənin payına düşmüşdür. Nəqliyyatda sahibkarlığın inkişafı hesabına sərnişindaşımalar 2,2 faiz, yükdaşımalar 2,7 faiz artmışdır. İyun ayında açılmış Lənkəran-Moskva aviareysi hava nəqliyyatında sərnişindaşıma üçün əlverişli imkanlar yaratmışdır.

Cari ilin 9 ayı ərzində iqtisadiyyatın və sosial sferanın inkişafına 77,9 milyon manatlıq investisiya yönəldilmişdir. Bu dövrdə rayona 96 milyon 535 min manat həcmində özəl investisiya cəlb edilmişdir. Tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın həcmi 7,9 milyon manat olmuşdur. Əhalinin şəxsi vəsaiti hesabına ümumi sahəsi 16874 kvadratmetr olan yeni yaşayış evləri tikilib istifadəyə verilmişdir.

Hesabat dövründə əhaliyə 325,4 milyon manatlıq ticarət, 57,1 milyon manatlıq ödənişli xidmətlər göstərilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ticarət xidməti 1,7 faiz, ödənişli xidmətlər 1,5 faiz artmış, orta aylıq əmək haqqı 300 manat təşkil etmişdir.

Ötən ildən rayonun dotasiyadan asılılığı ləğv edilərək özünümaliyyələşdirmə sisteminə keçirilmişdir. Vergi və tədiyələrdən 9 milyon 706 min manat vəsait daxil olmuş, proqnoza 94,7 faiz əməl olunmuşdur.

Müasir tələblərə cavab verən yeni Olimpiya İdman Kompleksi tikilib istifadəyə verilmişdir. Özəl investisiya hesabına "Lənkəran İstisu və Sağlamlıq Mərkəzi" üçün sanatoriya tipli kompleksin tikintisi başa çatmaq üzrədir. Cənab Prezidentin sərəncamı ilə ayrılmış vəsait hesabına xalça fabrikinin tikintisi başa çatdırılmışdır. Fabrikdə 116 nəfər qadın çalışır, gələcəkdə onların sayının 150 nəfərə çatdırılması nəzərdə tutulub.

Birinci dərəcəli yeni Ələt-Astara magistral avtomobil yolunun ikinci hissəsinin tikintisi başa çatdırılmışdır. Möhtərəm Prezidentin sərəncamı ilə ayrılmış 9,1 milyon manat vəsait hesabına çətin təbii şəraitdə yerləşən Hirkan-Daştatük-Biləsər avtomobil yolu yenidən qurulmuşdur. Lənkəran-Lerik magistral avtomobil yolunun əsaslı təmirinə 5 milyon manat vəsait ayrılmış və hazırda yolun tikintisi davam etdirilir.

Lənkəranın şəhər, qəsəbə və kəndlərində tikinti, abadlıq, quruculuq işləri geniş vüsət almışdır. Küçə və xiyabanlarda, magistral yolların kənarlarında binaların, fərdi yaşayış evlərinin divarları, barılar suvaqlanmış, 89354 kvadratmetr hasar və bordür təmir edilərək rənglənmişdir. Şəhərin park və bağlarında 27 min ədəd dekorativ ağac və gül kolları əkilmişdir.

Küçələrin təmirinə və asfaltlanmasına diqqət artırılaraq uzunluğu 4500 metr olmaqla şəhərdaxili küçələrə asfalt döşənmişdir. Lənkəran şəhərində 6 çoxmənzilli yaşayış binasının dam örtüyü dəyişdirilmiş, fasadları rənglənmişdir. Şəhər İcra Hakimiyyətinə ayrılmış vəsait hesabına 9 çoxmənzilli yaşayış binasının dam örtüyü təmir edilmişdir.

Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə Lənkəran şəhərində 11 çoxmərtəbəli yaşayış binasının təmiri üçün 918,3 min manat vəsait ayrılmışdır. Bu sahədə müvafiq tədbirlər görülür. Aparılan işlər sakinlər tərəfindən böyük razılıqla, minnətdarlıqla qarşılanır.

Əhalinin fasiləsiz elektrik enerjisi və təbii qazla təchiz olunması, şəhərin içməli su və kanalizasiya sisteminin yenidən qurulması sahəsində tədbirlər davam etdirilmişdir. İlin əvvəlindən 47 yeni güc transformatoru, 2117 smartkart tipli və 3547 elektron tipli sayğac quraşdırılmışdır. "Azərişıq" MMC tərəfindən 2x20 meqavat gücündə, 110/35/10 kv-luq "Lənkəran-2" elektrik yarımstansiyasının yenidən qurulması başa çatdırılmışdır.

Haftoni qəsəbəsinə və Xanlıq kəndinə təbii qazın verilməsi təmin edilmişdir. Şəhərin 43-cü məhəlləsində 2300 poqonmetr yeni qaz xətti çəkilmişdir. Şovu Əşlə və Mollakənd kəndlərinin qazlaşdırılması istiqamətində işlər başlanmışdır. Rayonda təbii qazla təmin edilən abonentlərin sayı 95 faiz təşkil edir.

Rayonun Digah, Şiləvar, Sütəmurdov və Velədi kəndlərində içməli su xəttinin çəkilişi davam etdirilir.

Təhsil, səhiyyə, mədəniyyət sahəsində uğurlar artır

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini - ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Rasilə Arifqızı bildirir ki, rayonun ali, orta ixtisas və orta ümumtəhsil məktəblərində təlimtərbiyə və tədris prosesi uğurla davam edir, təhsilin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Ali məktəblərə qəbul imtahanlarının nəticələri də sevindiricidir. Test üsulu tətbiq olunandan ilk dəfə rayonumuzdan iki nəfər - Lənkəran şəhər 4 nömrəli məktəb-liseyin məzunu Fəyaz Aslanlı və Balıqçılar qəsəbə orta məktəbinin məzunu Rəmzi Abıyev 700 bal, 49 nəfər məzun 600-dən, 68 nəfər isə 500-dən çox bal toplamışlar. Rayon müəllimlərinin əməyi layiqincə qiymətləndirilərək 4 nömrəli məktəb-liseyin direktoru Yeganə Əsgərova respublikanın əməkdar müəllimi, şəhər 3 nömrəli tam orta məktəbin müəllimi Sevda Qədirli "Tərəqqi" medalına, şəhər 6 nömrəli tam orta məktəbin müəllimi Zamin Baxşıyev "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanına, Boladi kənd 1 nömrəli tam orta məktəbin müəllimi Seydəmir Dadaşov Təhsil Nazirliyinin Fəxri fərmanına layiq görülmüşlər.

Təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə əlaqədar işlər davam etdirilir. Lənkəran Dövlət Universitetində turizm-təcrübə bazası və yeməkxana binası tikilib istifadəyə verilmişdir. Siyavar kəndində 96 şagird yerlik yeni modul tipli məktəb binası quraşdırılıb istifadəyə verilmişdir. Universitet üçün əlavə 2 tədris korpusunun və yataqxana binasının inşası davam etdirilir. Köhnəgəgir kəndində 40, Jidi kəndində 96, Alazəpin kəndində 20, Türkəncil kəndində isə 80 şagird yerlik modul tipli məktəblərin tilintisi davam etdirilir. Təhsil Nazirliyi tərəfindən 264 şagird yerlik Gəgiran kənd orta məktəbinin tikintisi üçün hazırlıq işlərinə başlanmışdır.

Lənkəranda 52 uşaq bağçası fəaliyyət göstərir. Bunlardan 14-ü şəhərdə, qalanı qəsəbə və kəndlərdə yerləşir. Son illər Heydər Əliyev Fondunun dəstəyilə müasir üslubda "Nağıl" uşaq bağçası, 5 saylı körpələr evi tikilib istifadəyə verilmişdir.

Rayonun səhiyyə kollektivi əhaliyə göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi məqsədilə müvafiq tədbirlər görür. Əhalinin ümumi profilaktik müayinələrə cəlb olunması ilə əlaqədar 139268 nəfər tibbi müayinədən keçirilmişdir. İlin 9 ayında rayonun səhiyyə müəssisələrində 7093 nəfər xəstə müalicə olunub. Onlardan 1164 xəstə üzərində cərrahiyyə əməliyyatı aparılıb.

Mərkəzi Gömrük Hospitalının həkim briqadası rayonda olmuş və 300 nəfər vətəndaşı ödənişsiz müayinələrdən keçmişdir.

Rayonun mədəniyyət müəssisələrində də bir sıra işlər görülmüş, tarixi əlamətdar günlər qeyd olunmuş, mədəni-kütləvi tədbirlər keçirilmişdir. İyun ayında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Lənkəran şəhərində "100 illik tariximiz" devizi altında "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı keçirilmişdir.

Lənkəran şəhər mərkəzləşdirilmiş kitabxana sistemi öz işini günün tələbləri səviyyəsində qurmuşdur.

Mərkəzi kitabxananın qarşısında "Ümummilli lider Heydər Əliyev-95", "Müstəqil Azərbaycanın banisi", "Müstəqilliyimiz əbədidir", "Uğurlu siyasətin davamçısı", "2018-ci il - Azərbaycanda Xalq Cümhuriyyəti İlidir", "Akademik Zərifə Əliyeva-95", "Torpaq uğrunda ölən varsa, Vətəndir", "Nəsimi poeziyası", "Qara Qarayev-100", "Aşıq Şəmşir-125", "Mir Cəlal Paşayev-110", "Mehdi Məmmədov-100", "Milli-mənəvi dəyərlərimiz", "Lənkəranın şair və yazıçıları", "Azərbaycanın dilbər guşəsi - Lənkəran", "Kitabxanaya daxil olan yeni nəşrlər", "Uşaqların sehirli dünyası", "Ensiklopediyalar" və müxtəlif adda kitab sərgiləri təşkil olunub. MKS-nin direktoru Nuranə Nəsirova Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüşdür.

Turizmin inkişafı daim diqqət mərkəzindədir. İlin 9 ayında rayona 20 min nəfərdən çox turist gəlmişdir. Onların 15 faizi xarici turistlər olmuşdur.

Noyabr ayında Lənkəran Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə sayca ikinci olan ənənəvi "Çay, çəltik, sitrus festivalı" keçirilmişdir. Festivalda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ərazi-təşkilati məsələlər şöbəsinin beşinci ərazi sektorunun müdiri Dəyanət Abdullayev, Milli Məclisin üzvləri: Hadi Rəcəbli, Hüseynbala Mirələmov, Rüfət Quliyev, respublika təşkilatlarının nümayəndələri, tanınmış elm, mədəniyyət və incəsənət xadimləri, xaricdə yaşayan diaspor təşkilatlarının rəhbərləri, İsveçin Azərbaycandakı səfirliyinin rəsmisi, beynəlxalq təşkilatların, xarici və ölkə mətbuatının təmsilçiləri, icra aparatının, hüquq-mühafizə orqanlarının, idarə və təşkilatların rəhbər işçiləri, rayon ictimaiyyətinin nümayəndələri, şəhər sakinləri iştirak etmişlər.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, rəsmi şəxslər və qonaqlar tədbir iştirakçıları ilə birlikdə bərəkətli Lənkəran torpağında yetişdirilmiş və istehsal edilmiş məhsullarla bəzədilmiş örtülü pavilyonlara baxış keçirmiş, bəzəkli vitrinlərdə çay, çəltik, sitrus, digər növ ərzaq və sənaye məhsulları, xalq sənətkarlığı nümunələri nümayiş etdirilmişdir. "Çayımızın dadı var", "Lənkəran düyüsü - dillər əzbəri", "Sitrus bağlarının möcüzəsi", "Qonaq evin ruzi-bərəkətini artırar" və digər nominasiyalı pavilyonlarda sərgilənən məhsullar festival iştirakçılarının və qonaqların böyük marağına səbəb olmuşdur.

Rayonda dövlət gənclər siyasəti uğurla həyata keçirilir. İlin 9 ayı ərzində gənclərlə bağlı 30 tədbir keçirilmiş, bu tədbirlərdə 23 min yeniyetmə və tələbə gənc iştirak etmişdir. Rayon gənclər və idman idarəsi tərəfindən 21 idman yarışı təşkil edilmiş, yarışlarda ümumilikdə 1286 nəfər gənc idmançı iştirak etmişdir. Respublika səviyyəli yarışlarda rayon idmançılarından 21 nəfər I yerə, 19 nəfər II yerə və 20 nəfər III yerə layiq görülmüşdür.

Qarşıda çoxlu işlər, məsul vəzifələr durur. Cənab Prezidentin tapşırığı ilə dəniz kənarında yerləşən dəmir yol xəttinin köçürülməsinin layihələndirilməsi işləri aparılır. Bundan əlavə Sütəmurdov kəndində yeni turizim istirahət kompleksinin tikilməsi nəzərdə tutulmuşdur. Xəzər dənizi sahili boyunca görüləcək işlər Lənkəranın turizm xəritəsini daha da zənginləşdirəcəkdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin davamlı və misilsiz qayğısı sayəsində Lənkəran dinamik inkişaf yolundadır. Subtropiklər diyarı sabaha inamla gedir. Lənkəranlılar doğma rayonunu daha abad, gözəl, yaraşıqlı görmək üçün səylərini əsirgəmir, var qüvvə ilə çalışır, bu əsrarəngiz diyarın tərəqqisinə öz layiqli töhfələrini verirlər.

Əlisəfa HƏSƏNOV,
"Respublika".